# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №6 (7340) | 21 mart 2014-cü il | cümə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|





# QADINLAR BAYRAMI TƏNTƏNƏ İLƏ QEYD OLUNDU

**Şirvan şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə «Yeganə» şadlıq sarayında 8 mart-Beynəlxalq Qadınlar günü münasibətilə ümumşəhər tədbiri keçirilmişdir.**

Tədbir iştirakçıları Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalovu, Şura üzvlərini, hüquq-mühafizə orqanlarının rəhbərlərini hərarətlə qarşılamışlar.

Bayram tədbirində demək olar ki, şəhərin bütün idarə, müəssisə və təşkilatlarından zərif cinsin nümayəndələri iştirak edirdilər.

Şirvan İES MMC-nin direktoru F.Süleymanov, şəhər Təhsil şöbəsinin müdiri P.Nəbiyev, Şirvan Dövlət İqtisadiyyat və Humanitar kollecinin direktoru B.Məmmədov, Qarabağ əlilləri, veteranları, şəhid ailələri ictimai birliyi şəhər şöbəsinin sədri P.Xankişiyev, MŞX-nin baş həkimi



F.Səfərov və digər idarə-müəssisə rəhbərləri çıxış etdilər.

Natiqlər kollektivlərinin xanımlarını, ümumilikdə şəhər qadınlarını 8 mart bayramı münasibətilə təbrik edib onlara xoş, səmimi arzularını çatdırdılar.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov çıxışında bu bayramın tarixinə nəzər saldı. Dedi ki, dünya qadınlarının kişilərlə bərabər hüquqlara malik olmaq istəkləri ilk dəfə 1857-ci ildə mart ayının 8-də ABŞ-ın Nyu-York şəhərinin toxuculuq sənayesində çalışan qadınlar tərəfindən ifadə olunmuşdur. 1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist internasionalının qurultayı Klara Setkinanın təklifi ilə hər il 8 mart gününü Dünya Qadınları günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir.

1975-ci ildə BMT-nin qərarı ilə Beynəlxalq Qadınlar gününün qeyd olunması dünya dövlətlərinə tövsiyə olunmuşdur. Başçı dedi ki, 8 mart Azərbaycanda ülvi varlıq olan qadına məhəbbət ehtiramı ifadə edən bayram kimi geniş qeyd olunur. Azərbaycan qadını həmişə öz əqli, zəkası, müdrikliyi, vəfası, sədaqəti, analıq keyfiyyətləri ilə adımızı ucaltmışlar. Kişilərlə çiyin-çiyinə çalışan qadınlarımız hər şeydən əvvəl anadır. Ana övlad böyüdüb tərbiyə edir. Ömür-gün yoldaşları ilə əl-ələ verib cəmiyyət üçün gərəkli oğul, qız yetişdirirlər.

Görkəmli qadın şəxsiyyətlərimiz olmuşdur və var. Sağlığında millətimizin sağlamlığı keşiyində fədakarcasına çalışan görkəmli həkim, alim, akademik Zərifə xanım Əliyeva, şərqşünaslıq elmimizə dəyərli töhfələr vermiş Aida xanım İmanquliyeva belələrindəndirlər. Buna görə də onlar, eləcə də onların müasirləri olmuş digər görkəmli xanımlarımız şərəfli işləri ilə adlarını xalqımızın tarixinə




qızıl hərflərlə yazmışlar.

M.T.Camalov şəhid analarını təbrik etdi. Xüsusi vurğuladı ki, bu qadınlar vətən üçün sədaqətli, qeyrətli, mərd oğullar böyüdüblər. Bu gün də Vətənimizin keşiyində duran mərd, mübariz oğullarımız çoxdur. Halal süd əmmiş bu oğullar düşməni hər an yerində oturtmağa qadirdirlər.

Başçı istehsalatın müxtəlif sahələrində çalışan bütün qadınlarımıza səmimi təbriklərini çatdırdı. Dedi ki, onlar nümunəvi işləri ilə həmişə öndə gedirlər. M.T.Camalov ümummilli lider Heydər Əliyevin qadın əməyini həmişə yüksək qiymətləndirdiyini, onlara diqqətlə, həssaslıqla yanaşdığını söylədi. Dedi ki, ümummilli lider Heydər Əliyevin bu siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən də layiqincə davam etdirilir.

Qadınlara böyük etimad göstərilir. Onlar dövlət orqanlarında, parlamentdə, bələdiyyə qurumlarında, ictimai-siyasi təşkilatlarda, təhsil, elm, mədəniyyət, səhiyyə və digər xidmət sahələrində layiqincə təmsil olunurlar.

Müstəqil Azərbaycanın qazandığı bütün uğurlarda qadınlarımızın misilsiz xidmətləri var. Respublikamızın hər yerində gedən abadlıq, quruculuq işlərində qadınlar çox yaxından iştirak edirlər. Onlar ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərində fəal iştirak edərək vətənimizin yüksəlişinə öz töhfələrini verirlər.

Qadınlarımızın rolu hər sahədə-milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, mədəniyyətimizin və incəsənətimizin dünya miqyasında tanınmasında gündən-günə artır. Bu işdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti Azərbaycan qadınının beynəlxalq aləmdə yüksək imicini formalaşdırmışdır.

Qadınlarımıza hər yerdə olduğu kimi, şəhərimzdə də yüksək diqqət yetirilir. Onlar Şirvan şəhərinin ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Şəhərimizin elə sahəsi yoxdur ki, orada qadın çalışmasın. Zərif cinsin nümayəndələri adlandırdığımız xanımlarımızın dövlətimizin möhkəmləndirilməsində, iqtisadiyyatımızın davamlı inkişafında, gənc nəslin vətənə, torpağa məhəbbət və azərbaycançılıq məfkurəsi ruhunda tərbiyəsində rolu daha da güclənir.

Şəhərimizin təhsil, səhiyyə və mədəniyyət müəssisələrində çalışanların əksəriyyətini qadınlar təşkil edir. Səriştəli, savadlı, işgüzar qadınlar tərəfimizdən rəhbər, məsul vəzifələrə irəli çəkilirlər. Xanımlarımız dövlətə, dövlətçiliyə sədaqətləri, həyat yoldaşlarına, övladlarına qayğı və məhəbbətləri ilə ucalırlar. Bir sözlə, tapşırılan işin öhdəsindən layiqincə gələn qadınlarımız hər sahədə nümunə göstərirlər.

Başçı çıxışının sonunda xanımları 8 mart- Beynəlxalq Qadınlar günü münasibətilə təbrik etdi, onlara həyatda möhkəm cansağlığı, xoşbəxtlik, səadət arzuladı.

Sonra M.T.Camalov şəhərin ictimai-siyasi həyatında fərqlənən bir qrup qadına gül dəstəsi və qiymətli hədiyyələr verdi. Şirvan Mədəniyyət evinin «Şirvan» rəqs qrupunun çıxışları tədbirə əsl bayram əhval-ruhiyyəsi bəxş etdi.

Respublikanın tanınmış müğənnisi Yusif Mustafayev və onun sənətçi dostları tədbir iştirakçıları qarşısında bir-birindən maraqlı konsert proqramı ilə çıxış etdilər.

Xanımlarımıza şən musiqi çələngi təqdim edən sənətçilərin ifaları alqışlarla qarşılandı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**




Bahar nə xoş gəlir, ruha dad verir.
Xəyala, duyğuya qol-qanad verir;
Var olsun şeirimiz, şairlərimiz!-
Hər gülə, çiçəyə təzə ad verir.

Çıxır dağ döşünə körpə quzular,
Tərlanın səsini əks edir sular.
Səhər yuxusundan ayıldır məni
Sinəmə sığmayan böyük duyğular.

**Səməd Vurğun**









# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ ŞİRVANDA VƏTƏNDAŞLARI QƏBUL ETMİŞDİR

**Martın 12-də əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov nazirliyin Şirvan şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzinin inzibati binasında bu şəhərdən, eləcə də Hacıqabul, Saatlı və Sabirabad rayonlarından olan vətəndaşları qəbul etmişdir.**



Sakinlərin müraciətləri əsasən ünvanlı dövlət sosial yardımlarının təyinatı, nazirliyin bərpa müəssisələrinə göndərişlərin, sanatoriya-kurort yollayışlarının, əlillik dərəcələrinin verilməsi, mənzil, əlil arabası və avtomobil ilə təminat və digər məsələlərlə bağlı olmuşdur. Müraciətlərdə qaldırılan bəzi məsələlər yerindəcə həllini tapmış, digərləri isə araşdırılması üçün qeydiyyata götürülmüşdür. Nazir Səlim Müslümov vətəndaşların qaldırdıqları bütün məsələlərin obyektiv və ədalətli şəkildə araşdırılaraq konkret tədbirlər görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə göstəriş vermişdir.

Qəbul zamanı nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər qeydə alınaraq müvafiq orqanlara çatdırılması üçün nəzarətə götürülmüşdür.

# «VERGİ GƏLƏCƏYİMİZİN TƏMİNATIDIR»



**Şirvan şəhər Təhsil Şöbəsi 5 saylı Ərazi Vergilər İdarəsi ilə birlikdə təsdiq etdiyi "Vergi gələcəyimizin təminatıdır" mövzusunda məktəblilər arasında inşa yazı müsabiqəsinin Əsasnaməsinə müvafiq olaraq Şirvan şəhər ümumtəhsil məktəblərində təhsil alan VII-XI sinif şagirdləri arasında iki mərhələdə (məktəb və şəhər) inşa yazı müsabiqəsi keçirmişdir.**

İnşa yazı müsabiqəsində şəhər ümumtəhsil məktəblərindən 15 nəfər şagird iştirak etmişdir. İnşa yazı müsabiqəsinin şəhər turunda 3 nömrəli tam orta məktəbin X sinif şagirdi Gülnar Əliyeva I yeri, 16 nömrəli tam orta məktəbin X sinif şagirdi Aynur Əzizova II yeri, 4 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Səmayə Məmmədova III yeri, 18 nömrəli tam orta məktəbin XI sinif şagirdi Eldarə Əlizadə IV yeri tutmuşlar.



Müsabiqəyə təqdim edilmiş 15 inşa toplu halda çap olunmuş və ümumtəhsil məktəblərinin şagirdlərinə paylanılması təmin edilmişdir.

Müsabiqənin yekun mərhələsi 13.03.2014-cü il tarixdə B.Aslanov adına 16 nömrəli tam orta məktəbin akt zalında keçirilmişdir. Tədbirdə Şirvan şəhər Təhsil Şöbəsinin müdiri P.Nəbiyev, 5 saylı Ərazi Vergilər İdarəsinin rəis müavini P.Qurbanov, bu layihənin rəhbərləri şəhər Təhsil Şöbəsinin aparıcı məsləhətçisi R.Allahverdiyev və 5 saylı Ərazi Vergilər İdarəsinin xidmət şöbəsinin rəisi İ.Dövlətov iştirak edirdi.

Tədbirin sonunda inşa yazı müsabiqəsində qalib gələn ümumtəhsil məktəblərinin şagirdlərinə şəhər Təhsil Şöbəsinin və 5 saylı Ərazi Vergilər İdarəsinin qiymətli hədiyyələri və fəxri fərmanları verilmişdir.

**«İŞIQ»**

**Şirvan şəhər Mərkəzi kitabxanasının oxu zalında şəhər Peşə Liseyi ilə birgə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri M.Ə.Rəsulzadənin anadan olmasının 130 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Peşə Liseyinin şagird və pedaqoji kollektivi, mədəniyyət işçiləri və fəal oxucular iştirak edirdilər.**

# O, BU GÜN DƏ HÖRMƏTLƏ XATIRLANIR

Şirvan şəhər MKS-n direktoru İltifat Nəbiyev giriş sözü ilə çıxış edərək Məhəmməd Əmin Rəsulzadə haqqında geniş məlumat verdi. Sonra V.Xudiyeva (mərkəzi kitabxana), A.Fərzəliyeva (Heydər Əliyev Mərkəzi), A. Qəhrəmanova, F.Əliyeva, A.Məmmədli, Z.Həzrətquliyeva, S.Abbasov, Y.Orucova (peşə liseyi) və başqaları çıxış edərək dedilər ki, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, ədəbiyyatşünas, publisist, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə siyasi fəaliyyəti ilə yanaşı olaraq bədii yaradıcılıqla da məşğul olmuşdur. O təqib və təzyiqlərə baxmayaraq bir sıra qəzet və jurnalların təsisçisi, bir-birindən maraqlı olan əsərlər yazmış, müxtəlif məqalələrlə çıxış etmişdir. Natiqlər onu da vurğuladılar ki, Məhəmməd Əmin Rəsulzadə ömrünün yarıdan çoxunu mühacirətdə keçirib. Amma Azərbaycan həqiqətləri uğrunda mübarizəsi 1920-ci ildən sonra da davam edib. Ona görə də o əziz bir insan kimi xatırlanır və bundan sonra da xatırlanacaq.

Çıxış edənlər onu da əlavə etdilər ki, «Bir kərə yüksələn bayraq, bir daha enməz!» şüarı böyükdən kiçiyə hər kəsin dilinin əzbəridir. Tədbir Peşə liseyi şagirdlərinin (rəhbəri dil-ədəbiyyat müəllimi Zülfiyyə Həzrətquliyeva) hazırladığı ədəbi-bədii kompazisiyanın nümayişi ilə başa çatdırıldı.

**Alma CƏFƏROVA,**
**kitabxananın əməkdaşı**

# "SAĞALMAZ YARAMIZ-XOCALI"

**Şirvan şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatı Gənclər Birliyi Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş " Sağalmaz yaramız -Xocalı" adlı tədbir keçirib.**

Tədbirdə Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının sədri Ə.İbrahimov, Şirvan YAP Gənclər Birliyinin sədri E.Məmmədov, şəhər icra hakimiyyətinin nümayəndəsi E.Məcidov, Heydər Əliyev Mərkəzinin və Tarix-Diyarşünaslıq muzeyinin əməkdaşları, Şirvan şəhər İqtisadiyyat və Humanitar Kollecinin tələbələri iştirak ediblər.

Tədbirin əvvəlində Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının sədri Ə.İbrahimov qeyd edib ki, hər yerdə Xocalı faciəsinin ildönümü ilə bağlı silsilə tədbirlər keçirilir. Bizim tədbir də Xocalı şəhidlərinin əziz xatirəsinə həsr olunub. O, sonra soyqırımla əlaqədar olan statistik məlumatları da nəzərə çatdırdı.

Tələbələrdən Ə. Qəmbərova çıxış edərək Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırım kimi tanınmasını, qətliama ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymət verilməsinin tarixi zərurət olduğunu vurğulayıb.

Heydər Əliyev Mərkəzinin əməkdaşı Aynur Fərzəliyeva Xocalı faciəsi haqqında məlumat verərək bildirdi ki, Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinistləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı və qanlı səhifəsidir.

Daha sonra Heydər Əliyev Mərkəzinin əməkdaşı Nəmidə Nəmini də öz növbəsində bildirdi ki, bu gün bizim tariximizin qanla yazılmış bir səhifəsidir. Təbii ki, gələcək nəsillər də bu hadisəni unutmamalıdır. Bunun üçün də biz gənclərin və eləcə də bütün vətəndaşların üzərinə çox böyük məsuliyyət düşür. İnsanlıq əleyhinə olan bu ən dəhşətli vandalizm aktını böyükməkdə olan nəsillərə tutarlı faktlarla çatdırmalıyıq ki, öz milli tarixlərindən xəbərləri olsun.

**Əfsanə QƏMBƏROVA,**
**"İŞIQ" ın ştatdankənar müxbiri**

# XI RESPUBLİKA DİL VƏ MƏDƏNİYYƏT FESTİVALININ GÜMÜŞ MEDALI ŞİRVANA GƏTİRİLDİ

**Ruslan Əhmədov Şirvan şəhər 16 nömrəli tam orta məktəbin 10a sinfində oxuyur.**



Hələ uşaq yaşlarından dilimizə və ədəbiyyatımıza olan hədsiz marağı onu yaşıdlarından fərqləndirirdi. Bütün fənlər üzrə əla qiymətlərlə oxuyan Ruslanın Azərbaycan dili və ədəbiyyatına olan güclü marağı mənim diqqətimdən yayınmamışdı. Ona tez-tez əlavə tapşırıqlar, sərbəst işləməsi üçün müəyyən istiqamət verirdim. Bundan daha da həvəslənən Ruslan müntəzəm olaraq məktəbdə və şəhərimizdə keçirilən yarış və müsabiqələrə qatılır, öz gücünü sınayırdı.

2013-2014-cü dərs ili Ruslan üçün daha uğurlu oldu. Şirvan Araz kursunun 22 dekabr 2013-cü ildə təşkil etdiyi Bilik Yarışı imtahanında Ruslan 649 bal toplayaraq 2-ci yerə layiq görüldü. Fəxri fərman və qiymətli hədiyyə (fotoaparat) ilə mükatatlandırıldı. Yarışda 2-ci yer tutması Ruslanı ruhdan salmadı. O, daha da çox çalışdı. 2014-cü ilin yanvarında Şirvan Özəl Türk Liseyində keçirilən «Dil və Mədəniyyət Festivalı»nda iştirak edən Ruslan nəhayət ki, arzusuna çatdı. Festivalın qalibi oldu. O, artıq bölgə yarışmalarına hazırlaşırdı. Bu yarışmada da qalib olan Ruslan 2014-cü ilin fevral ayının 17-də Şirvan şəhər Mədəniyyət evində təşkil olunmuş mükafatlandırma mərasmini belə xatırlayır: « Bölgə üzrə inşa nominasiyasında I yerə layiq görülmüşdüm. Mənə fəxri fərman və qiymətli hədiyyə (videomaqnitafon) verildi. Bu mükafatı şəhərimizin icra hakimiyyəti başçısı, hörmətli M.Camalovun təqdim etməsi məni daha da ruhlandırdı.Final yarışmalarına daha ciddi hazırlaşmağa başladım.» Bu il martın 4-də Bakıda Heydər Əliyev sarayında XI Ümumrespublika Dil və Mədəniyyət Festivalı da Ruslan üçün uğurlu oldu. O, «Ana dilimizi sevək» devizi altında keçirilən Dil və Mədəniyyət Festivalında müsabiqənin Qrammatika kateqoriyasında 2-ci yerə çıxaraq festivalın gümüş mükafatına və qiymətli hədiyyəsinə layiq görüldü. Ruslan deyir:» Bu mükafatı mənə BDU-nun rektoru, millət vəkili, akademik Abel Məhərrəmov təqdim etdi. Bunun üçün də şərəf duyuram.» Hüqüqşünas olmağı qarşısına məqsəd qoyan Ruslanın bu uğurlarında onun oxuduğu təhsil ocağının, məktəb rəhbərliyinin və müəllim kollektivinin böyük əməyi vardır. Əminəm ki, o, bu məqsədinə nail olacaq və müəllimlərinin ona olan etimadını doğruldacaqdır.

Mən Ruslanın Azərbaycan dili və ədəbiyyatı müəllimi olmaqla bərabər, həm də onun təhsil aldığı sinfin rəhbəriyəm. Şagirdimin əldə etdiyi uğurlar həm də mənim uğurlarımdır. İndidən artıq demək olar ki, zəhmətimiz hədər getməyib. Əminəm ki, Ruslan gələcəkdə daha uca zirvələri fəth edəcək və hər zaman məktəbimizin adını uca tutacaqdır. Ona bu işlərində müvəffəqiyyətlər arzulayırıq.

**Məleksuma ƏSƏDOVA,**
**Şirvan şəhər B.Aslanov adına 16 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi**

# Şirvan şəhərində 2013-cü ildə sənayenin inkişafının dinamik göstəriciləri

**2013-cü il respublikamızın iqtisadiyyatının bütün sahələri üçün uğurlu illərdən biri olmuşdur. Belə ki, ölkəmizdə ümumi daxili məhsul istehsalı ötən illə müqayisədə 5.8 faiz artaraq 57.5 milyard manata çatmışdır. Əlavə dəyərin 46.3 faizi sənaye sahələrinin payına düşmüşdür. Sənaye məhsulu 2012-ci illə müqayisədə 1.8 faiz artaraq 33.7 milyard manata çatmış, onun 74.0 faizi və ya 24.9 milyard manatı mədənçıxarma bölməsində istehsal olunmuşdur.**

Sənayenin neft sektorunda məhsul istehsalı 1.1 faiz, qeyri-neft sektorunda isə 4.8 faiz artım müşahidə olunmuşdur.

Respublikamızın bütün bölgələrində olduğu kimi Şirvan şəhərində də ötən illə müqayisədə ümumi məhsul buraxılışı 2013-cü il ərzində artımla müşahidə olunmuşdur. Belə ki, ötən illə müqayisədə ümumi məhsul buraxılışı 20.6 faiz artaraq 446739.2 min manata çatmışdır. Ümumi məhsul istehsalının 70.6 faizi sənaye sahələrində, 16.7 faizi tikinti kompleksində, 0.6 faizi kənd təsərrüfatında, 0.7 faizi nəqliyyatda, 11.2 faizi ticarət və xidmət sahələrində, 0.2 faizi isə rabitə sahəsində istehsal olunmuşdur.

Şəhər üzrə ümumi məhsul istehsalının 41.6 faizini təşkil edən neft sektorunda 5.2 faiz azalma, qeyri-neft sektorunda isə artma müşahidə olunmuşdur.

Ümumi respublika üzrə sənaye göstəricisinin 0.9 faizini təşkil edən Şirvan şəhərində istehsal olunan sənaye məhsulu 2012-ci illə müqayisədə 7.4 faiz artaraq 315437.8 min manata çatmış, onun 58.9 faizi və ya 185826.4 min manatı mədənçıxarma bölməsində, 17.4 faizi, yaxud 54861.9 min manatı emal bölməsində, 23.2 faizi və ya 73176.8 min manatı elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizatı bölməsində, 0.6 faizi və ya 1572.1 min manatı su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi bölməsində istehsal olunmuşdur.



**M.Mustafayev,**
**Şirvan şəhər Statistika İdarəsinin rəisi**

Sənaye istehsalının 83.5 faizi malların, 16.5 faizi və ya 51922.7 min manatı xidmətlərin payına düşmüşdür. 2013-cü il ərzində sənaye sahələrində istehsal olunmuş məhsulun 34.9 və ya 110006.1 min manatı dövlət, 65.1 faizi və ya 205431.7 min manatı qeyri-dövlət müəssisələri tərəfindən istehsal edilmişdir.

Sənaye məhsulu istehlakçıları üçün yüklənmiş malların və göstərilmiş xidmətlərin həcmi 315323.3 min manat və ya ümumi məhsul istehsalının 99.9 faizini təşkil etmişdir. 2014-cü ilin yanvar ayının 1-nə sənaye müəssisələrin anbarlarında 3530.9 min manatlıq və ya dekabr ayının 1-i vəziyyəti ilə müqayisədə 1004.3 min manat az hazır məhsul qalığı olmuşdur. Ehtiyatların 53.6 faizi dövlət sektorunun, 46.4 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

Şirvan şəhərində 2013-cü il ərzində 308.1 min ton əmtəəlik xam neft, 11.6 milyon kubmetr qaz, 3350.3 QVt.s. elektrik enerjisi, 1625.3 ton saflaşdırılmış pambıq yağı, 1863.1ton pambıq lifi, 1378.2 ton təzə çörək, 13.6 ton şirniyyat, 464 ədəd taxta pəncərə , 664 ədəd taxta qapı blokları, 128.6 ton paltar sabunu, 1120 ədəd plastik qapı və pəncərə blokları, 19.3 min kubmetr inşaat kərpici, 2000 ton sönməmiş əhəng, 44 ədəd rotor, 3.4 ton ilişmə birləşmə muftaları, 3.5 ton sair vallar və s. istehsal olunmuşdur.

2013-cü il ərzində sənaye sahəsində işçilərin sayı 5380 nəfər təşkil etməklə əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 6.6 faiz çox olmuşdur. Dövlət müəssisələrində çalışan işçilərin sayı 5.8 faiz artaraq 2173 nəfər və qeyri-dövlət müəs-sisələrində işləyənlərin sayı 7.1 faiz artaraq 3207 nəfər olmuşdur. Çalışan muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 537.4 manata, orta aylıq əmək haqqı dövlət sektorunda 7.0 faiz artaraq 372.9 manat təşkil etmişdir.

# SƏRGİ MARAĞA SƏBƏB OLDU

***Şirvan Dövlət Rəsm Qalereyasında 8 mart-Beynəlxalq Qadınlar günü münasibətilə Estetik Tərbiyə mərkəzinin əməkdaşı Aygün Məlikovanın əl işlərindən ibarət fərdi sərgi açıldı. Şəhərin müxtəlif təşkilat, idarə və təhsil müəssisələrinin nümayəndələrinin iştirak etdiyi sərgidə Aygün Məlikovanın 45-dən çox dekorativ tətbiqi sənət nümunələri hər kəsin marağına səbəb oldu. Onun müxtəlif mövzularda işlədiyi əsərlərində bir qadın , bir ana kimi duyğuları, düşüncələri dilə gəlirdi.***

Mərasimi qalereyanın direktoru Ziyafət Hüseynov açaraq,öncə bayram münasibətilə bütün qadınlara təbriklərini çatdırdı. Qeyd etdi ki, Aygün Məlikovanın hər bir əsəri onun daxili aləminin, arzu və zəhmətinin bəhrəsidir..

«Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərib», söyləyən qalereyanın baş fond mühafizi Çinarə Vəliyeva «Qadın müqəddəsdir» mövzusunda, qalereyanın əməkdaşı Günay Həsənova isə «Dekorativ-tətbiqi sənət və Aygün Məlikovanın yaradıcılığı» haqqında məruzə etdi. Sonda A.Məlikova 8 Mart Beynəlxalq Qadınlar günündə sərgisinin təşkil olunduğuna görə qalereyanın rəhbərliyinə təşəkkürünü bildirdi. Əsərlərindən, sənət dünyasından, tablolara və ilmələrə köçürmək istədiyi arzularından söhbət açdı. Bildirdi ki, Azərbaycan Respublikasının xəritəsini yaratmaq ən böyük istəyidir. Sərgi «Bənövşə» uşaq bağçasının hazırladığı bədii kompazisiya ilə yekunlaşdı.

Sərgi bir həftə sənətsevərlərin ixtiyarında olmuşdur

**Yaqut VAFİQQIZI**

**HÜQUQİ ŞƏXSLƏRİN NƏZƏRİNƏ!**

# Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında

## BİLDİRİŞ

**Bildiririk ki, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 17 dekabr 2013-cü il tarixli Qanununun 4.1-ci maddəsinə edilmiş dəyişikliklərdə (dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməyə görə məsuliyyət) və həmin Qanuna edilmiş əlavələrdə (9.3-cü, 9.4-cü və 11.4-1-ci maddələr) hüquqi şəxslərin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qrumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyatı məqsədilə qeydiyyat orqanına müraciətlərin Qanunla müəyyən edilmiş müddətdə və qaydada edilməsi nəzərdə tutulmuşdur.**

Belə ki, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 17 dekabr 2013-cü il tarixli Qanunu ilə həmin Məcəlləyə əlavə edilmiş 200-3-cü maddədə hüquqi şəxslərin dövlət reyestri üçün zəruri məlumatların verilməməsi, yəni hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə və qaydada müvafiq icra hakimiyyəti orqanına müraciət olunmamasına görə vəzifəli şəxslərin min manatdan iki min manatadək miqdarda, hüquqi şəxslərin isə iki min beş yüz manatdan üç min manatadək miqdarda cərimə edilməsi nəzərdə tutulmuşdur.

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 850-IVQD nömrəli Qanununun tətbiq və «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə», «Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2014-cü il tarixli 98 nömrəli Fərmanının 3.3-cü bəndinə əsasən həmin Məcəllənin 200-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi baxır.

Odur ki, reyestr məlumatlarında baş vermiş dəyişikliklərlə bağlı 40 gün ərzində aidiyyatı üzrə dövlət orqanlarına müraciət etməyiniz Sizə tövsiyə olunur.

Əlavə məlumatı Vergilər Nazirliyinin 195 nömrəli Çağrı Mərkəzinə və ya rəsmi İnternet saytına (www.taxes.gov.az) müraciət etməklə, eləcə də 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə (telefon tel: 021 216-11-02) və ya müvafiq hesab etdiyiniz Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (Salyan şəhəri, H.Əliyev prospekti, tel: 021 255-14-10, Sabirabad şəhəri, İ.İsgəndərov küçəsi, tel: 021 235-93-21, Saatlı şəhəri, Q.Qarayev 5, tel: 021 285-39-99, Neftçala şəhəri, H.Əliyev prospekti 31, tel: 021 263-40-11 və Hacıqabul İ.Qayıbov küçəsi 15, tel: 021 204-35-83) zəng etməklə və ya şəxsən gəlməklə əldə edə bilərsiniz.

**5 saylı Ərazi Vergilər İdarəsi**

**Şirvan Şəhər Mərkəzi Kitabxanasının Uşaq şöbəsində diyarşünaslıq biliklərinin artırılması məqsədilə yazıçı- publisist Eldar Qəmərlinin yaradıcılıq gecəsi keçirildi. Tədbirdə 9№-li tam orta məktəbin şagirdləri, müəllimlər və mədəniyyət işçiləri iştirak edirdi.**

# YAZIÇININ YARADICILIQ GECƏSİ

Aparıcı jurnalist Yaqut Hüseynova E.Qəmərlinin həyat və yaradıcılığı haqqında geniş məlumat verdi. O, qeyd etdi ki, Eldar Qəmərli yaradıcılığa hələ gənc yaşlarından publisistik məqalələr, şeirlərlə başlamışdır. Felyetonlarında, satirik şeirlərində mənfilikləri-cəhaləti, avamlığı, naqisliyi, paxıllığı, yaltaqlığı kəskin tənqid atəşinə tutmuşdur.

Kitabxananın əməkdaşı Vəzifə Xudiyeva isə Eldar Qəmərlinin lirik şeirlərindən bəhs etdi. Dedi ki, E.Qəmərli felyeton, novella və satirik şeirlərində acı gülüşlə diqqəti cəlb edirsə, lirik şeirlərində kövrək qəlbli, incə ruhlu bir şair kimi yadda qalır. «Evləri köndələn yar» şeirində şair saf, təmənnasız məhəbbəti tərənnüm edir.

**Göz aldadan gözəllik hələ məlahət deyil,**
**Dörd cəhət var, heç biri uğursuz cəhət deyil.**
**Evin köndələnliyi qüsur, qəbahət deyil,**
**Köndələn evimizə elə bilmə gülən var,**
**Qəlb köndələn olmasın, evləri köndələn yar.**

Şair şeirlərində bizi dilimizi sevməyə, düşmənə qarşı ciddi və amansız, insanlara qarşı ədalətli və doğrucul olmağa, nöqsanlara dözməməyə, ümumi işi hər şeydən üstün tutmağa səsləyir.



**Adam var bu dünyada yüksəyə qalxar gedər,**
**Adam var bu dünyaya beş gün yoluxar gedər,**
**Adam var yabı kimi qulağı salxar gedər,**
**Dünya bir pəncərədir, hər gələn baxar gedər.**

Sonra çıxış edənlər E.Qəmərlinin «Şirvan şəhəri» kitabı üzərində dayandılar.Dedilər ki, bu kitab geniş oxucu kütləsinin böyük marağına səbəb olub. Şirvan şəhərinin tarixi haqqında oçerklərdən ibarət olan kitab nəzərdə tutulmuş üç kitabdan birincisidir.

İxtisasca tarixçi olan Mehriban Novruzova qeyd etdi ki, bu kitabdakı məlumatları əldə edənə qədər biz Şirvanın keçmişi haqqında o qədər də tutarlı faktlara malik deyildik. Hətta bəzilərinə elə gəlirdi ki, müasir Şirvanın ərazisi tarix boyu insan yaşamayan boş bir düzənlik olmuşdur. Lakin Eldar Qəmərlinin tarixi oçerklərdən ibarət olan bu kitabı şəhərimiz haqqındakı bu fikirləri dəyişdirdi.

Şirvan şəhər Tarix-Diyarşünaslıq muzeyinin direktoru Gülşən Vəliyeva «Şirvan şəhəri» əsərini şəhərimizin tarixi haqqında yazılmış ən dəyərli mənbə hesab etdi. O vurğuladı ki, müəllif bu əsəri yazarkən ciddi araşdırmalar aparmış, Şirvan şəhərinin tarixi yerlərini qarış-qarış gəzmişdir.

Şəhər 4№-li tam orta məktəbin müəllimi Əbil Əhmədov Eldar Qəmərlinin bu kitabı ərsəyə gətirənə qədər nə qədər zəhmət və vaxt sərf etdiyinin şahidi olduğunu söylədi. Şirvan şəhərinin ən qədim zamanlardan 1920-ci ilə qədərki dövrünü əhatə edən bu kitabın geniş oxucu kütləsi qarşısında təbliğ olunmasını xüsusilə vurğuladı.

Şəhər Mərkəzi Mədəniyyət evinin işçisi Nurlan Qədimov çıxışında hər bir şəxsin öz şəhəri, yaşadığı coğrafi ərazisi haqqında biliklərə malik olmasının vacibliyini dedi. Bu baxımdan «Şirvan şəhəri» əvəzsiz kitabdır, dedi. O, hamını, xüsusilə məktəblilərə bu kitabı oxumağı tövsiyə etdi.

Mərkəzi kitabxananın əməkdaşları Alma Cəfərova, Kəmalə İsayeva, 9№-li tam orta məktəbin tarix müəllimi Fərqanə Babanlı daha çox lirik və satirik şeirlər, novellalar və povestlər müəllifi kimi tanıdıqları Eldar Qəmərlinin Şirvan şəhərinin tarixi haqqında yazdığı «Şirvan şəhəri»-nin böyük əhəmiyyət kəsb etdiyini qeyd etdilər.

Şirvan şəhər MKS-nin direktoru İltifat Nəbiyev Eldar Qəmərli ilə tanışlığının daha gənc yaşlarına təsadüf etdiyini, onu səmimi, saf, təmiz ürəkli bir insan kimi tanıdığını, əsərlərini-xüsusilə, felyetonlarını hər zaman sevə-sevə oxuduğunu vurğuladı.

Yazıçı-publisist Eldar Qəmərlinin qızı Xatirə Əliyeva tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi. Sonda tədbir iştirakçılarına Eldar Qəmərlinin «Evləri köndələn yar», «Ağacdələn», «Şirvan şəhəri» kitabları hədiyyə olundu.

**Kəmalə İSAYEVA,**
**baş biblioqraf**

# TƏBRİK EDİRİK!

# AZƏRBAYCANIN ƏMƏKDAR MƏŞQÇİLƏRİ



Respublikamızda idmana, idmançıya qayğı dövlət səviyyəsində uğurla həyata keçirilir. Bu sahədə də çəkilən zəhmət dəyərləndirilir. Belə olan halda, əməyinin,zəhmətinin yüksək səviyyədə öz qiymətini tapması hər bir idmançını sevindirməyə bilməz.

Balabəy müəllim də sözün həqiqi mənasında çətinliklərə qatlaşıb alın təri tökərək idmançı, məşqçi kimi nəyə qadir olduğunu çoxdan sübut etmişdir.

İllərə nə var ki... Hiss olunmadan, sürətlə ötüb keçir. Bir də görürsən ki, əlçatmaz, ünyetməz yeniyetməlik illərin arxada qalıb. O şəxs xoşbəxtdir ki, ötən illərə nəzər salanda hədər yaşamadığını görsün.

Balabəy müəllim zəhmətli, mənalı ömür yaşayır. Güləşə həvəsi hədsiz olub. Bu arzu ilə də 12 yaşında güləş bölməsinə yazılıb. Xatırlayır ki, məşqçim mərhum Tofiq Xəlilov oldu. SSRİ idman ustası Tofiq müəllim məni diqqətlə süzüb dedi:

- Bizdə məşqi atıb gedən olmur. Qəti qərar qəbul et...

Özümdən asılı olmayaraq ötkəmliklə dedim:

-Öldü var, döndü yoxdur.

Cavabım Tofiq müəllimin gülüşünə səbəb oldu...

Yavaş-yavaş çətinliklərə alışırdım. Məşqçinin göstərdiyi fəndləri düzgün öyrənməyə çalışırdım. Şamaxıda yeniyetmələrin respublika birinciliyində mükafatçılar arasında olanda ilk qələbənin sevincini yaşadım. Digər yetirmələri kimi mənim də ilk uğuruma sevinən məşqçim-Tofiq Xəlilovun təbrikini alanda sanki dünyanı mənə bəxş etdilər.

Bir neçə gün öncə sərbəst güləş üzrə respublikanın əməkdar məşqçisi adını almışam. Azərbaycan Respublikasının Gənclər və İdman naziri A.Rəhimovun imzası ilə mənə təqdim olunan «Əməkdar məşqçi» fəxri adın vəsiqəsini alanda mərhum məşqçimin ruhunu şad etdiyimə görə hədsiz sevindim.

Bəli, 12 yaşından güləşə gəlmiş Balabəy Ağakişiyev düz 18 il qüvvəsini döşək üzərində sınayıb. Şəhər, rayon turnirlərində dəfələrlə qalib gəlib. Yeniyetmələr arasında keçirilən yarışlarda mükafatçılar sırasında, sonra kişilər arasında Azərbaycan Həmkarlar İttifaqı Şurasının IX yay spartakiadasının (1969-cu il) bürünc mükafatçısı olub.

1968-1973-cü illərdə milli güləş üzrə şəhərimizdə keçirilən Azərbaycan birinciliyinin mükafatçısı olmuşdur. 14 iyun 1970-ci il. Xankəndi şəhərində respublika «Neftçi»Cəmiyyəti Mərkəzi Şurasının və idman ustalığına namizədlərin birinciliyində ən yüksək pilləyə qalxmışdır. 1970-ci ildə Tbilisidə-Zaqafqaziya birinciliyində uğurlu çıxışı da yaddaqalandır.

B.Ağakişiyev bir neçə yarışda «Ən texnikalı güləşçi» adına layiq görülüb. O, sərbəst və yunan-Roma güləş növlərində qüvvəsini dönə-dönə sınamış, saysız-hesabsız diplomlar, fəxri fərmanlar, qiymətli hədiyyələr almışdır.

Balabəy müəllim 1971-ci ildən başlayaraq Şirvan şəhər Uşaq Gənclər İdman Məktəbinin sərbəst güləş bölməsinə baş məşqçi təyin olunmuşdur. Onun yetirmələri məşqçinin əməyini itirməyiblər. İndiki Göy-göl ( keçmiş Xanlar) şəhərində yeniyetmələrin (UGİM) respublika birinciliyində onun komandası 3-cü yeri tutmuşdur. Sonrakı illərdə B.Ağakişiyevin yetirmələri daha uğurlu göstəricilər qazanmış, məşqçiyə sevinc bəxş etmişlər. Təcrübəli, cəfakeş məşqçi onlarla gəncin güclü pəhləvan kimi yetişməsində əlindən gələni əsirgəməyib. Həmin gənclər ad-san qazanıb, respublikadan kənarlarda da tanınıblar.

Azərbaycan Respublikasının əməkdar məşqçisi Araz Qurbanov, idman ustaları Yadulla Muradov, Adil Bayramov, ustalığa namizəd Koroğlu Məmmədov, Rəsul Xanlarov, Güluş Rəcəbov, Xələddin Məmmədov və başqaları bunlara misaldır. Ali təhsilli fiziki tərbiyə müəllimi B.Ağakişiyev vaxtilə şəhərimizdəki pedaqoji texnikumda dərs deməklə yanaşı orada ictimai əsaslarla sərbəst güləş bölməsi də təşkil etmişdi.

1974-1981-ci illər ərzində respublika texnikumlarının Bakıda keçirilən birinciliyində B.Ağakişiyevin bir neçə yetirməsi çempion adı almış, mükafatçılar sırasında olmuşdur.

Hazırda o Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində müxtəlif ixtisas qruplarında fiziki tərbiyə dərsləri aparır.

Ali kateqoriyalı müəllim B.Ağakişiyev işlədiyi müddət ərzində Təhsil nazirliyinin, şəhər Təhsil şöbəsinin, Şirvan şəhər Gənclər və İdman idarəsinin, eləcə də kollec rəhbərliyinin diplomları, fəxri fərmanları ilə təltif olunub.

B.Ağakişiyev ömrünün 50 ildən çoxunu idmana həsr edib. Güclü idmançıların yetişməsində, bilavasitə sərbəst və yunan-Roma üzrə güləşçilərin, məşqçilərin, təlimatçıların hazırlanmasında əlindən gələni əsirgəməmişdir. Təcrübəli müəllim bu gün də üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir.



İbrahim Əhmədov xalça üzərinə ilk addımını 1964-cü ildə SSRİ idman ustası, mərhum Tofiq Xəlilovun rəhbərliyi altında başlamışdır. 1967-ci ildən isə SSRİ idman ustası, biologiya elmləri namizədi, mərhum Dilsuz Novruzovun rəhbərliyi altında güləşin sirlərini öyrənmişdir. 1970-ci ilə kimi o, dəfələrlə şəhər, «Neftçi», «Spartak» və «Məhsul» cəmiyyətləri respublika Şurasının çempionu və mükafatçısı olmuşdur.

1970-ci ildə Azərbaycanın V spartakiadasında III yerə çıxmışdır. İbrahim güləş karyerasını Bakı, Krasnodar və Kişinyov şəhərlərində davam etdirmişdir.

O, 1971-ci ildə Qorki (RF) şəhərində «lokomativ» cəmiyyəti Mərkəzi Şurasının birinciliyində gümüş, 1972-ci ildə Tallin şəhərində gənclər arasında «lokomotiv» cəmiyyəti MŞ-nin birinciliyində qızıl, 1973-cü ildə isə Riqada keçirilən yarışda gümüş medala layiq görülmüşdür.

1975-ci ildə İbrahim İvan Zaikinin xatirəsinə həsr olunmuş ümumittifaq yarışda da III yerə çıxmışdır. 1974-cü ildə Rusiya Ali məktəb tələbələrinin unversiadasının çempionu olmuşdur.

O, 1976-77 və 78-ci illərdə Moldaviya Respublikası birinciliyində, sonra Moldaviya -Ruminiya, Moldaviya-Bolqarıstan və Moldaviya-Kuba gənclər festivalında yarışlarda ən yüksək pilləyə qalxmışdır.

1972-ci ildən SSRİ idman ustası olan İbrahim Əhmədov Kişinyov Dövlət Pedaqoji İnstitunun bədən tərbiyəsi fakültəsini bitirdikdən sonra yunan-Roma güləşi üzrə məşqçi-müəllim işləməyə başlamışdır.

1981-ci ildən Şirvan şəhər rəhbərliyinin təqdimatı ilə onu «Neftçi» idman cəmiyyəti şəhər şurasının nəzdindəki kompleks UGİM-nə direktor təyin edirlər. O, bu vəzifədə 1989-cu ilə kimi çalışır. Sonra şəhər Həmkarlar İttifaqı Könüllü Bədən Tərbiyəsi İdman Cəmiyyəti şəhər şurasına sədr təyin edilir. 1992-ci ilə kimi o bu vəzifədə çalışır.

1992-ci ildən 1994-cü ilə kimi Əli Bayramlı şəhərindəki «Vüsal» idman klubuna sədr seçilir, 1996-cı ildən 2000-ci ilə kimi Hacıqabul rayon «Məhsul» idman cəmiyyətinin rayon şurasının sədri, 2000-ci ildən isə şəhər təhsil şöbəsinin 16 nömrəli tam orta məktəbində fiziki tərbiyə müəllimi işləyir.

İbrahim müəllim işlədiyi müddət ərzində rəhbərlik etdiyi idman məktəbində məşqçi müəllimlərə hərtərəfli köməklik göstərmiş, onun köməyi ilə idmanın ayrı-ayrı növlərində 15 nəfər SSRİ idman ustası fəxri ada layiq görülmüşdür.

O,səmərəli fəaliyyətinə görə dəfələrlə fəxri fərmanlarla və pulla mükafatlandırılmışdır. Əməyini nəzərə alan respublika idman komitəsi 1990-cı ildə ona Azərbaycanın fəxri bədən tərbiyəçisi və idman əlaçısı adı vermişdir.

İbrahim Əhmədov 18 fevral 2014-cü ildə Azərbaycan Gənclər və İdman nazirliyi tərəfindən yunan-Roma güləşi üzrə Azərbaycanın əməkdar məşqçisi fəxri ada layiq görülmüşdür.

Söhbət zamanı İbrahim müəllim dedi:

-Hörmətli perzidentimiz İlham Əliyevin diqqət və qayğısı nəticəsində bədən tərbiyəsi və idman respublikanın hər yerində olduğu kimi, şəhərimizdə də sürətlə inkişaf etməkdədir.

İdmanın ayrı-ayrı növlərində şəhərimizin idmançıları respublika və beynəlxalq yarışlarda uğurla çıxış edirlər.

Hörmətli başçımız M.T.Camalov hər ilin sonunda idmançılarımızın və məşqçilərimizin əməyini yüksək qiymətləndirir. Ona görə şəhərimizdə hər il fəxri ad alan məşqçi-müəllimlərimizin sayı artır.

Respublikanın Əməkdar məşqçisi adını almağım məni hədsiz sevindirir. Çalışacağam ki, bundan sonra da üzərimə düşən vəzifəyə layiqincə, şərəflə əməl edim. Mənə göstərilən diqqət və etimadı lazımınca doğruldum.

**F.RƏHİMOV**

# BİLİK YARIŞMASI

**Riyaziyyat ümumtəhsil məktəblərində tədris olunan ən mühüm fənlərdən biridir. O diqqətin, hafizənin, nitqin inkişafına böyük kömək edir. Riyazi biliklərə malik olmaq, müasir texniki vasitələrlə davranmaq əldə edilən biliklərin qazanılmasını asanlaşdırır. Gündəlik fəaliyyətimizdə riyaziyyatla qarşılaşır, riyazi bilik və bacarığımızdan faydalanırıq.**

Bu baxımdan məktəbimizdə bu fənnin tədrisinə ciddi yanaşılır.

Ali kateqoriyalı riyaziyyat müəllimi Əlifağa Cəfərov bilik və bacarığın, təcrübəsini şagirdlərindən əsirgəmir. Riyaziyyatı oğlan və qızlara sevdirmək üçün imkanlarından maksimum istifadə edir. Bir-birindən maraqlı tədbirlər həyata keçirir.

Bu günlərdə riyaziyyat üzrə məktəbimizdə keçirilən bilik yarışması buna canlı misaldır. Siniflərarası keçirilən bu yarış olduqca maraqlı və gərgin keçdi. Obyektivlik əsas şüar idi.

Onu da qeyd edim ki, ayrı-ayrı siniflər üzrə tərtib olunmuş testlər 20 çalışmadan ibarət idi. Onlar hər bir çalışmaya diqqətlə yanaşır, düzgün, doğru cavab tapmağa çalışırdılar.

Bilik yarışması uğurla başa çatdı. VII sinif şagirdlərindən Ümidvar Əzimov, Gülsüm Mehralıyeva, Murad Muradov, VIII sinif şagirdlərindən Əli Əliyev, Elgün Səlimov, Elnurə Gözəlova, IX sinif şagirdlərindən Ceyhun Əliyev, Vüsalə Vəliyeva, Aygün Kişiyeva, X sinif şagirdlərindən Şəfa Məmmədova, Səmayə Əsgərli ən yüksək bal topladılar.

Yüksək bal toplayan oğlan və qızlara məktəb direktoru tərəfindən fəxri fərmanlar verildi.

**Əbil ƏHMƏDOV,**
**şəhər 4№-li tam orta məktəbin müəllimi**

## YENİ KİTABLAR

# «İNSTİNKT, YOXSA QUŞ DİLİ?»

**Bu kitab Mahi Şəfəqlinin oxucuları ilə altıncı görüşüdür. Şəhərimizdə həkim- seroloq işləyən Mahi xanım öncə «Şirvana gəl, Şirvana», «Dərman bitkiləri», «Qızılgül olmayaydı». «Efir tərkibli müalicəvi bitkilər», «Sənaye və dərman əhəmiyyətli bitkilər» adlı kitablar yazıb.**

O, «Qızıl qələm» Media Mükafatı Laureatı adına və bir çox təltiflərə layiq görülmüşdür.




M.Şəfəqlinin yeni kitabının da oxucular tərəfindən həvəslə qarşılanacağına şübhəmiz yoxdur. «İnstinkt, yoxsa quş dili?» kitabında təbiətin bizə bəxş ediyi sərvətlər olan bitki və heyvanlar aləminin insanlara töhfəsindən bəhs olunur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. «İnstinkt, yoxsa quş dili?» dən zootexniklər, baytarlar, bioloqlar, zooloqlar, ornitoloqlar, həkimlər, fərdi quşçuluqla məşğul olanlar da istifadə edə bilərlər.

«Bayramoğlu» nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılmış «İnstinkt, yoxsa, quş dili?»nin elmi redaktoru biologiya elmləri doktoru, professor Elşad Qurbanovdur.

Bu kitabı oxuyun, bəhrələnin.

**«İŞIQ»**

# BİLİRSİNİZMİ?!

Məşhur Avstriya bəstəkarı İohan Ştraus (1825-1899) gəzintiyə çıxarkən həmişə qara itini özü ilə aparармış. Bir dəfə necə olursa bəstəkar onu müşayiət edən xidmətçidən soruşur:

-Bu itə nə olub ki, tükləri belə seyrəkləşib?

Xidmətçi xeyli fikirləşdikdən sonra bəstəkara belə cavab verir:

-Maestro,mən sizin itinizin tüklərini saysız-hesabsız pərəstişkarlarınıza satıram, özü də deyirəm ki, bu tüklər İohan Ştrausun başının tükləridir.

****

Mendeleyev Bakının neft mədənlərini gəzmişdir (1864-1880), mədəndən çıxan bir yağı «fotonaftil» adlandırmışdır. Sonralar amerkanlar bu fotonaftili apararaq ondan «neft»(kerosin) hazırlamışdır.

****

Vyanalı yazıçı Peter Altenberq bir gün səhhətinin ağırlaşdığını görüb həkimə müraciət edir. Yazıçının həyat tərzi ilə yaxından tanış olan həkim ona spirtli içkilərdən imtina etməyi məsləhət görür. Altenberq heç bir söz demədən palto və şlyapasını götürüb getmək istəkən həkim deyir:

-Bağışlayın,siz məsləhət üçün pul vermirsiniz?

-Necə?-deyə Altenberq təəccüblənir,-Axı, mən sizin məsləhətlərinizi qəbul etməmişəm.

## Allah rəhmət eləsin

Möhsüm Xəlilov və Fəxrəddin Rəhimov Pənah Qurbanova oğlu

**ƏSGƏRİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## ETİBARSIZDIR

Şirvan MNQİ tərəfindən Əbilov Maqsud Mənsim oğluna məxsus mənzilə- indiki L-t İbrahimov küçəsindəki bina 8, mənzil 5-ə (keçmiş A.Əhmədov küçəsi) verilmiş 1995-ci il tarixli 1807 inventar №-li texniki pasport, 16.08.1995-ci il tarixli 11№-li kitab, reyestr 397 qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**** ****

Əhmədov Amid Ağasəməd oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: M.M.XƏLİLOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200